*Elnurə Bünyat qızı MƏMMƏDOVA*
*iqtisad elmləri doktoru*
*Azərbaycan Kooperasiya Universiteti*
*E-mail: mammadova-e@list.ru*
*ORCID: https://orcid.org/0000-0003-2721-5733*

# ÖLKƏDƏ İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞDIRILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV İRSİ

***Xülasə***

Tezisdə əsasən investisiya mühitinin yaxşılaşdırılması və onun adekvatlığına imkan verməyən problemlərin aradan qaldırılması yollarından bəhs olunur. Dövlət strukturlarının investisiya mühitinin yaxşılaşdırılması siyasətinə yanaşma metodları onlara olan inamın səviyyəsinin artırılmasına əsas prioritet kimi baxılır, bu isə əksini müvafiq olaraq investor güvənində tapır.

***Açar sözlər: investisiya, investisiya mühiti, investor, sahibkarlıq mühiti, investisiya holdinqi, dövlət büdcəsi.***

***

İnvestisiya mühitinin yaxşılaşdırılmasına mane olan səbəblərin tədqiqi sistemli yanaşmanı şərtləndirir və bu maneələrin aşkarlanması ilə yanaşı daha əlverişli investisiya mühitinin formalaşdırılması ilə bağlı mexanizmlərin işlənilməsi, mövcud problemlərin həlli yollarının müəyyənləşdirilməsi vacibdir.

İnvestisiya mühitinin formalaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı beynəlxalq təcrübəyə baxarkən bu məsələlərin vacibliyini dünya təcrübəsinə istinadən göstərmişdik. Belə ki, əlverişli investisiya mühiti yeni imkanlar açır və kiçik müəssisələrdən tutmuş transmilli kompaniyalara qədər bütün şirkətlərin məhsuldar investisiya fəaliyyətini, yeni iş yerlərinin açılmasını, fəaliyyətin miqyasının genişləndirilməsini stimullaşdırır.

İnvestisiya mühitinin yaxşılaşdırılması və onun adekvatlığına imkan verməyən problemlərin aradan qaldırılması dövlət strukturlarına olan ehtibarı da artırır. Dövlət strukturlarının investisiya mühitinin yaxşılaşdırılması siyasətinə yanaşma metodları onlara olan inamın səviyyəsini artıra bilər, ya da azalda bilər, bu isə əksini müvafiq olaraq investor güvənində tapır. İqtisadi subyektləri və digər bazar iştirakçılarını cəlb etmək səyləri açıq və şəffaf şəkildə həyata keçirildikdə və müasir islahatlarla müşayiət olunduqda şirkətlərə inam artar və investor marağını gücləndirər.

Bu səbəbdən prioritetlərin müəyyənləşdirilməsi hökumətin əlverişli investisiya mühitinin yaradılmasına yönəldilmiş məqsələrin həyata keçirilməsindən asılı ola bilər. Bu sırada bir qrup tədbirlər: iqtisadiyyat subyektlərinin daha əlverişli çəkildə inteqrativ münasibətlərinin və əlaqələrinin formalaşdırılması; sahibkarlıq subyektlərinin, o cümlədən kiçik və orta müəssisələrin iqtisadi artım potensialının yüksəldilməsi; bazar iqtisadiyyatı iştirakçılarının beynəlxalq əmtəə bazarlarına çıxışlarının asanlaşdırılması və genişləndirilməsi; yüksək texnologiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi, yaxud transferi imkanlarının artması və s.

İnvestisiya mühitinin yaxşılaşdırılması tədbirlərinin görülməsi həm də ölkədə sağlam rəqabət mühitinin yaradılması və investorlara inamın artırılması üçün mühüm əhəmiyyət kəsb edir. Bu ilk növbədə iqtisadiyyatın yeni artım mənbələrinin formalaşdırılması, investisiyaların intensivliyinin artması və iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılması proseslərinə müsbət təsir göstərir. Belə ki, rəqabət üstünlüyü amillərinin formalaşdırılması və münbit investisiya fəaliyyəti şəraitinin yaradılması ölkədə mövcud olan təbii və iqtisadi resursların iqtisadiyyat, maliyyə dövriyyəsinə cəlb edilməsində önəmli məsələlər kimi xarakterizə edilir və potensial xarici investorlar tərəfindən yüksək qiymətləndirilir.

Bundan əlavə, investisiya fəallığının təmin edilməsi və mövcud problemlərin aradan qaldırılması investisiya proseslərinin intensivliyinin ümumiləşdirilmiş və qiymətləndirilmiş xarakteristikasıdır, yəni investisiya fəaliyyətinin səmərəlilik səviyyəsinin göstəricisidir. İnvestisiya fəallığı əsas kapitalın artımında və əsas fondların modernləşdirilməsində və digər mühüm istehsal-infrastruktur bazasının gücləndirilməsində vacib şərtlərdəndir.

Hesab edirik ki, investisiya mühitinin yaxşılaşdırılmasına mane olan problemlərin aradan qaldırılması sayəsində ölkədə investisiya mühitinin optimal strukturunun formalaşdırılmasına cəhd göstərilməsi səmərə verə bilər və bu məsələlər daim dövlətin diqqət mərkəzində saxlanılmalıdır. İnvestisiya mühitinin strukturu formalaşdırılarkən bir qrup amillərin nəzərə alınması da vacibdir: 1)investisiyaların səmərəli formada axınına kömək edən obyektiv amillər, eləcə də qoyulmuş vəsaitlərə görə gəlirlilik məsələlərinin daha balanslaşdırılmış və əsaslandırılmış olaraq proqnozlaşdırılması; 2) iqtisadiyyatın müxtəlif səviyyələrində investisiya mühitinin şaxələndirilməsi (diversifikasiyası); 3) milli iqtisadiyyatın investisiya mühitinin yaxşılaşdırılması tədbirlərində regional investisiya mühitinin mütləq şəkildə nəzərə alınması və s.

Ölkədə investisiya mühitinin yaxşılaşdırılması və mövcud problemlərin ardıcıl şəkildə aradan qaldırılması tədbirləri vacib elementlər kimi dövlətin iqtisadi siyasətinin əsasında yer almalıdırlar. Bu kimi tədbirlərə əsasən investisiya qoyuluşlarına inzibati, infrastruktur və maliyyə dəstəyinin mexanizmlərinin formalaşdırılması; inzibati manelərin azaldılması; məhsullara tələbin stimullaşdırılması mexanizmlərinin işlənməsi və tətbiqi; investisiyaların stimullaşdırılmasının vergi mexanizmlərinin hazırlanması və həyata keçirilməsi; elmtutumlu və yüksək texnologiyalı sahələrin inkişafının təmin olunması və s. aiddirlər: innovativ texnologiyaların transferi və tətbiqi məqsədi ilə, maşın və avadanlıq parkının yenilənməsi, istehsalın şaxələndirilməsi, beynəlxalq keyfiyyət idarəetmə standartlarının tətbiqi məqsədi ilə əlverişli şəraitin formalaşdırılması.

İnvestisiya fəaliyyətinin ümumi təhlilindən və müasir dövrümüzdəki məlum problemlərindən yanaşsaq, milli iqtisadiyyatda investisiya prosesinin fəallaşdırılmasına mane olan əsas problemlər sırasında yatırılan investisiyaların gəlirlilik səviyyəsinin daha optimal hesablanması və proqnozlaşdırılması, korrupsiya və rüşvət hallarının hələ də aradan tam qaldırılmaması, etibarlı fəaliyyət mexanizmlərinə zərurətin çox olması, portensial investisiya layihələri bankının yetərli olmaması, hazırlanan və investorlara təqdim edilən investisiya layihələrinin məhdudluğu; inzibatçılığın baryer kimi qalması, maliyyə-kredit və investisiya yatırımları mexanizmlərinin işləkliyində olan problemlər, iqtisadiyyatın müxtəlif sahələrində inhisarçılıq meyillərinin olması, tətbiq edilən güzəştlərin, dövlət dəstəyi mexanizmlərinin və fiskal alətlərin təkmilləşdirmələrə ehtiyacının olması daha çox yer almışlar. Dövlət tərəfindən bu istiqamətlərdə ardıcıl olaraq tədbirlər həyata keçirilməkdədir, amma, bu problemlərin həll olunmasını və xüsusilə, qeyri-neft sektoru sahələrində investisiya mühititnin maksimum yaxşılaşdırılması səviyyəsinin hələ də təmin edilməməsi qənaətindəyik [1].

Yeni çağırışlar şəraitində bir qrup ənənəvi problemlərin həll olunması və investisiya fəallığının artırılması, investisiya mühitinin potensial investorlar üçün daha əlverişli vəziyyətə gətirilməsi məqsədilə bir qrup amillərin nəzərə alınması və tədbirlərin keçirilməsi ola bilərdi: 1) birbaşa və əməliyyat xərclərinin azaldılması yolu ilə investisiya resurslarının yaradılması; 2) cəlb edilmiş əmanətlərdən daha yaxşı şərtlərlə investisiya mənbələrinin yaradılması və investisiyaya meyilliliyin artırılması üçün şəraitin təşkili, bununla əlaqədar olaraq, işgüzar inamı artıran və sahibkarlıq mühitini yaxşılaşdıran makroiqtisadi və tənzimləyici tədbirlər, biznesə etibarlılıq səviyyəsinin yüksəldilməsi və biznes mühitinin yaxşılaşdırılması kimi amillər də nəzərə alınmalıdır; 3) hazırda həyata keçirilən dövlət investisiyalarının fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və alternativ investisiya mənbələrinin formalaşdırılmasının stimullaşdırılması və 4) müxtəlif iqtisadiyyat sahələrinin, əsas etibarı ilə qeyri-neft sektoru sahələrinin rəqabətin üstünlüklərindən səmərəli istifadə etməklə və ixraca daha geniş dəstək verməklə, daxili bazarın potensialının maksimum dərəcədə artırılması hesabına rəqabətqabiliyyətli və ixracyönlü müəssisələr şəbəkəsinin yaradılması və məhsul istehsalının, ixracının təmin edilməsi. Bütün bunlar, şübhəsiz, təsirli tədbirlərin görülməsini şərtləndirir və investisiya mühitinin cəlbediciliyinə mənfi təsir göstərən hər bir elementin əsaslandırılmış şəkildə aşkarlanması və bu baryerin aradan qaldırılması tədbirlərinin həyata keçirilməsi aktual olaraq qalmaqdadır.

İqtisadiyyatın bəzi sahələrinin səmərililik problemlərinin və investisiya cəlbediciliyi problemlərinin hələ də aradan qalxmaması suallar doğurur. Buna görə də, ölkəmizdə qeyri-neft sektoru sahələri prioritet götürülməklə, ümumilikdə ölkə üzrə investisiya siyasətinin obyektiv reallıqlar və müasir çağırışlar əsasında yenilənməsi və daha təsirli mexanizmlərinin işlənməsi təmin olunmalı-

dır. Yaxşı olardı ki, ölkədə yatırılan investisiyaların vahid elektron portalı formalaşdırılsın, analitik informasiya bazası yaradılsın, investisiyalar haqqında məlumatların və büdcədən yönəldilən maliyyə resurslarının bölüşdürülməsi, layihələrin maliyyələşdirilməsi üzrə tenderlərin şəffaflığı məsələləri daha səmərəli təşkil olunsun və bizə görə bu təqdirdə investisiya mühitinin əhəmiyyətli səviyyədə yaxşılaşdırılması imkanları artacaqdır.

Qeyd edək ki, investisiya resurslarının mövcudluğu onun avtomatik olaraq investisiyaya çevrilməsi demək deyildir. Əgər şirkət investisiyada maraqlı deyilsə, o zaman şirkətin öz resursları kapital axınına səbəb ola bilər. Fəal investisiya siyasəti biznesin investisiya fəaliyyətini stimullaşdırmalıdır. Bu məqsədlə iqtisadi resurslardan istifadə mexanizmlərinin məhsuldarlığının yüksəldilməsi və biznes mühitin keyfiyyətinin, yanaşmalarının yaxşılaşdırılması tələb olunur. Makroiqtisadiyyat baxımından tədbirlər sistemi büdcənin strukturunun uzunmüddətli balanslığının, inflyasiyanın və faiz dərəcələrinin aşağı salımasını nəzərdə tutan makroiqtisadi sabitliyin təmin olunmasına yönəldilməlidir. Bu zaman büdcə kəsirinin ləğvinin və ya inflyasiyanın tez bir zamanda azaldılması deyil, büdcə və monetar siyasətin ardıcıllığı və onun optimal proqnozlaşdırılması daha vacibdir. Büdcənin strukturunda əhəmiyyətli səviyyədə uzunmüddətli makroiqtisadi səmərəni təmin edə bilən məhsuldar xərclərin xüsusi çəkisinin artırılmasına nail olmaq lazımdır. İnvestisiyayönlü dövlət büdcəsi gələcəyə, iqtisadi artıma, ilk növbədə, istehsal və sosial infrastruktura və insan kapitalına investisiya qoyuluşuna yönəldilməlidir. Əlbəttə ki, sərt büdcə məhdudiyyətləri şəraitində büdcənin strukturunda istehsal xərclərinin xüsusi çəkisinin artırılması xərclərin optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi baş vermədən mümkün deyildir, bu isə büdcə kəsirinin azalması deməkdir. Əmanətlərin investisiyalara çevrilməsi üçün isə tələb olunan digər tədbirlər sistemi dövlət tənzimləməsinin keyfiyyətinin əsaslı surətdə yaxşılaşdırılması, sabit vergi mühitinin təmin edilməsi, sahibkarlıq fəaliyyətinin səmərəliliyini azaldan baryerlərin aradan qaldırılması və daha işgüzar investisiya-innovasiya və fəaliyyət mühitinin yaradılmasından ibarətdir. Bundan əlavə, investisiya fəaliyyətində dövlət zəmanətləri və yenidən maliyyələşdirmə mexanizmlərinin təmin edilməsi hesabına, ilk növbədə, “dövlət-özəl tərəfdaşlıq” mexanizmləri vasitəsilə stimullaşdırmaq səmərəli ola bilər.

İqtisadiyyatın müxtəlif sahələrində öz səmərəliliyini təsdiq etmiş layihə - maliyyələşdirmə mexanizmini tam inkişaf etdirmək, prioritet dövlət proqramları ilə sıx əlaqədə olan inkişaf strukturlarının fəaliyyətini təkmilləşdirilmək də zəruri hesab olunur. Eyni zamanda, investisiya mexanizminin mühüm tərkib hissələrindən biri - tələbin formalaşdırılması, ölkə şirkətlərinin xarici bazarlara daxil olması üçün maneələrin aradan qaldırılması və daxili bazarda onların rəqabətqabiliyyətiyinin artırılması məsələlərinə ciddi önəm verilməlidir [2]. Bundan əlavə, investisiya mühitinin tələb olunan səviyyəyə adekvatlığının qiymətləndirilməsi və ortaya çıxan problemlərin həlli yollarının müəyyənləşdirilməsi məqsədilə bir qrup amillərə və yanaşmalara, onların xüsusiyyətlərinə xüsusi fikir verilməlidir.

İnvestisiya və sahibkarlıq mühiti ilə bağlı yanaşmalarda dövlət orqanlarının rolu və sahibkarlıq subyektlərinin fəaliyyət prinsipləri; yaxud investisiya əməliyyatları ilə bağlı risklərlə investisiya mühiti arasındakı tərs mütənasibliyin ciddi şəkildə nəzərə alınması; eyni zamanda, investisiya mühitinin iqtisadiyyatın real sektoruna yönəldilən investisiya ilə, əsas kapitala yönəldilən investisiyalarla, investisiya potensialı və investorun fəaliyyət şərtləri ilə sıx qarşılıqlı əlaqədə olması; investisiya mühitinin bazis şərtlərinin ayrı-ayrı investorların iradəsindən asılı olmadığının əsaslandırılması və s. ciddi şəkildə dəyərləndirilməli və nəzərə alınmalıdır [3].

Xüsusilə, ölkədə maliyyə-kredit və investisiya resurslarına əlçatanlığın və çıxışın asanlaşdırılması, müxtəlif iqtisadiyyat sahələrində və ölkə regionlarında investisiyaların cəlbini intensivləşdirməyə imkan verən xüsusi iqtisadi zonaların yaradılması, həmçinin ixtisaslaşdırılmış investisiya holdinqlərinin və fondlarının fəaliyyətə başlaması ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılmasına əhəmiyyətli səviyyədə müsbət təsir göstərə bilər.

## ƏDƏBİYYAT

1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu
2. Как стимулировать инвестиции. 27 апреля 2016.

3. https://www.vedomosti.ru/opinion/articles/2016/04/28/639386-stimulirovat-investitsii.
4. Azərbaycan Respublikasının investisiya mühiti haqqında: [Elektron resurs] / URL:https://www.economy.gov.az/article/azerbaycan-respublikasinin-investisiya -muhiti-haqqinda/21336#.

***Эльнура Бунят кызы Мамедова***
***доктор экономических наук***
***Азербайджанский Университет Кооперации***

## Наследие общенационального лидера Гейдара Алиева в формировании инвестиционной среды в стране

***Резюме***

В диссертации основное внимание уделяется проблемам, которые позволяют улучшить инвестиционную среду и ее адекватность. Упоминается о путях избавления от них. Метод подхода к политике государственных структур с улучшением инвестиционной среды, повышением уровня доверия к ним рассматривается как главный приоритет, что оказывает обратное влияние на доверие инвесторов.

***Ключевые слова: инвестиции, инвестиционная среда, инвестор, предпринимательская среда, инвестиционный холдинг, государственный бюджет.***

***Elnura Bunyat Mammadova***
***doctor of economic sciences***
***Azerbaijan Cooperation University***

## The legacy of national leader Heydar Aliyev in shaping the investment environment in the country

***Summary***

The thesis focuses mainly on the problems that enable the improvement of the investment environment and its adequacy. It is mentioned about the ways of getting rid of them. The method of approaching the policy of state structures with the improvement of the investment environment increasing the level of trust in them is considered as the main priority, and this has the opposite effect on investor confidence.

***Key words: investment, investment environment, investor, entrepreneurial environment, investment holding, state budget.***

***Səbirə İzzət qızı VƏLİYEVA***